“ABŞ demokratiyası haqqında əsas mətnlər”.
*Melvin Urovski*
Tərcümə və redaktə FAR CENTRE

**I HİSSƏ**

# 01. İstiqlaliyyət Bəyannaməsi (1776)

Amerika tarixində elə bir sənəd yoxdur ki, Amerika vətəndaşlarının beyin və qəlbində tutduğu yer baxımından İstiqlaliyyət Bəyannaməsi ilə bir sırada dura bilsin. Bəyannamə Birləşmiş Ştatların demokratik inkişafı nöqteyi-nəzərindən böyük önəm daşımaqla yanaşı, həm də Amerika demokratiyasının təməl sənədidir.

Biz elə bundan başlayacağıq, belə ki, İstiqlaliyyət Bəyannaməsi keçmişə işıq salaraq, Yeni Dünyanın demokratik ideya və institutlarının inkişafını əhatə edir. Bundan əlavə Birləşmiş Ştatların Bəyannamədə öz əksini tapmış ideyaları (habelə onun təsiri altında ərsəyə gəlmiş və yaranması üçün daha çox vaxt tələb edilmiş digər ideyaları) nə dərəcədə həyata keçirə bilməsini müqayisə etməklə, bu sənədin gələcəyini də izləmək mümkündür.

HİKMƏT HACIZADƏNİN KİTABXANASINDAN Arxiv 2025

Biz anlamalıyıq ki, İstiqlaliyyət Bəyannaməsi sadəcə olaraq, Şimali Amerikanın şərq sahilində yerləşmiş 13 ingilis koloniyasının özünü Böyük Britaniya və onun kralı III Qeorqun təəbəliyindən azad elan etməsindən özündə daha çox şeyi əks etdirir. Biz bu sənəddə həmin dövrün amerikalılarının azad insanların həyatını necə görməsinin, dövlətin hansı formaya malik olmasının, nə qayda-qanuna, nə də azadlığa ziyan vurmadan dövlətlə vətəndaş arasında məsuliyyətin necə bölünməsinin təsvirini tapa bilərik.

1763-cü ildə Şimali Amerika ərazilərinə nəzarət uğrunda Fransa və Britaniya arasında böyük müharibə başa çatdıqdan dərhal sonra, istənilən kolonial şəhərin, yaxud kəndin sakinlərindən soruşsaydılar ki, özlərini kim hesab edirlər, onlar deməzdilər ki: «biz

amerikalıyıq». Bunun əvəzinə fəxr ilə bildirərdilər ki, onlar Əlahəzrətin, Böyük Britaniya krallığının koloniyalarda yaşayan təəbələridir. Onlar hesab edirdilər ki, öz köhnə vətənləri üzrə qan qardaşları ilə ümumi dilə, mədəniyyətə, ən başlıcası isə ümumi qayda və imtiyazlara malikdirlər. Fransanın Yeni Dünyada öz nüfuzunu itirməsi və Britaniya koloniyalarının təhlükəsizliyinin xeyli möhkəmlənməsi ilə nəticələnmiş "Fransız" və "Hindu"[1] müharibələri Əlahəzrətin hökumətini külli miqdarda borca salmışdı. Okeanın o tayında firavan yaşayan koloniyalarına həsədlə baxan ingilis hökuməti axırda qərara aldı ki, koloniyalar öz idarəçiliyinə və təhlükəsizliyinə görə əlavə vergi ödəməlidir. Və 1760-cı illərdə Britaniya parlamenti büdcəyə daxil olmaları artırmaq məqsədilə ticarətin və öz koloniyalarının hökumətləri üzərində nəzarəti gücləndirməyə cəhd etdikdə, kolonistlər Böyük Britaniya vətəndaşları kimi öz hüquqlarının pozulmasına qarşı etiraza qalxdılar.

Koloniyaları metropoliyadan ayıran böyük məsafə faktiki olaraq, bu hüquqları da, ümumən insan hüquqlarına baxışı da kökündən dəyişmişdi. Amerika koloniyalarında cəmiyyətin özü muxtariyyət hissinin xeyli güclənməsi üçün hökumətin vətəndaşların gündəlik həyatına müdaxilə etməməsi, hökumətin əsas vəzifəsinin öz vətəndaşlarının azadlıq və əmlakının müdafiəsini təmin etməkdən ibarət olması haqqında ideyanın inkişafı üçün münbit zəmin yaratmışdı. Bu ideyaların cücərtiləri İngiltərənin özündə də yetişməyə başlamışdı, lakin XVIII əsr Britaniya hökuməti və qanunları tədricən krala və xüsusilə parlamentə öz vətəndaşları üzərində böyük hakimiyyət verilməsinə meyil etməyə başlamışdı. Ser Vilyam Blekstounun[2] sözləri ilə desək, qanunlar suverenin (ali hakimiyyəti icra edənin) tam sərəncamında idi.

Amerikalılar isə güclü hökumət və avtoritar suverenlər ideyasını rədd edərək bildirirdilər ki, bu, britaniyalıların ənənəvi hüquq və imtiyazlarına ziddir. 1760-cı illərin əvvəllərində koloniyalarda peyda olan pamfletlərdə Britaniya parlamentinin artmaqda olan hakimiyyəti kəskin tənqid olunur, göstərilirdi ki, bu, vətəndaşın şəxsi azadlıqlarının zəifləməsinə gətirib çıxaracaqdır. Və İngiltərə nəhayət öz imperiya nəzarətini gücləndirmək qərarına gəldikdə, koloniyaların sərt müqaviməti ilə rastlaşdı. Vergi yükünü artırmaq cəhdləri etirazlar, boykotlar və [Londona] müraciətlər dalğasına tuş gəldi. Beləlik-

Hikmət Hacızadənin kitabxanasında Arxiv 2025

lə kral hakimiyyətinin bu cəhdlərinin böyük hissəsi boşa çıxdı. Artıq 1770-ci illərin əvvəllərində koloniyalarda kral hakimiyyəti tənəzzülə uğradı, 1775-ci ildə isə real hakimiyyət artıq yerli qanunvericilik yığıncaqlarının əlinə keçdi. Bu yığıncaqların aydın təsəvvürü vardı ki, hökumət nəyi etməlidir və nəyi etməməlidir və koloniyalardakı amerikalıların böyük hissəsi bu baxışlara şərik çıxırdı. İstiqlaliyyət Bəyannaməsinin böyük əhəmiyyəti qismən də, onun müəlliflərinin bu təsəvvürləri dərk və ifadə etmək qabiliyyəti ilə əlaqədar idi.

İkinci Qitə Konqresinin çoxsaylı müraciətləri tələb olunan nəticələrə gətirib çıxarmadıqda, Konqres daha İngiltərədən asılı olmadığını elan etdi və Con Adams, Bencamen Franklin və Tomas Ceffersona İstiqlaliyyət Bəyannaməsinin layihəsini işləyib hazırlamağı həvalə etdi. Onların hər üçü ingilis ənənələri ilə yaxşı tanış idi və idarəçilik problemləri haqqında düşüncələrə xeyli vaxt sərf etmişdilər. Lakin bu üç nəfərin arasında Cefferson daha iti qələmə malik idi və o, bu Amerika eksperimentinin ümid və ideallarını uğurla ifadə edə bilmişdi.

Sonralar Con Adamsın dediyi kimi Bəyannamədə heç bir dənə də təzə ideya yoxdur. Əlbəttə, burada Con Lokk və digər ingilis mütəfəkkirlərinin müəyyən təsiri duyulur. Lakin onu da nəzərdən qaçırmaq olmaz ki, dövlət quruluşu konsepsiyası axırıncı 15 il ərzində koloniyalarda geniş yayılmış yüzlərcə pamfletdə dönə-dönə müzakirə edilmişdi. Və heç kəs dana bilməz ki, bu sənəd həmin ümumxalq müzakirəsinin tərkib hissəsi idi. Faktiki olaraq elə onun özü də pamfletdir, radikal, misilsiz və qeyri-qanuni (imperiya nöqteyi-nəzərincə) hərəkətlərə haqq qazandırmağa xidmət edən, habelə namussuz kralı və parlamenti ittiham edən təbliğat sənədidir. Bəyannamə müəlliflərinin sözlərinə görə, kolonistlər yalnız və yalnız, Tanrı tərəfindən bəxş edilmiş öz hüquqlarını müdafiə edirdilər.

Lakin Bəyannaməyə yalnız təbliğat sənədi kimi baxmaq düzgün olmazdı. Bu sənəd Amerika koloniyalarının yüz əlli ildən də böyük dövrü əhatə edən həyatının məntiqi tamamlanmasıdır ki, bu prosesin gedişində onlar dövlətin vəzifə və məqsədləri barədə öz təsəvvürlərini formalaşdırmış və tədricən ingilis olmaqdan əl çəkib, amerikalıya çevrilmişdilər.

Cefferson Bəyannamədə, kralın xalq qarşısında öz öhdəliklərini pozması haqqında ittihamın müdafiəsi naminə narazılıqlar üçün səbəblərin uzun siyahısını verir.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDA

Bu siyahı müasir oxucuya inandırıcı görünməyə də bilər. Bundan əlavə, bütün usta təbliğatçılar kimi Cefferson da öz maraqları naminə tarixi bilərəkdən təhrif etmişdi. Lakin bu siyahını diqqətlə oxusaq görə bilərik ki, o, Amerika demokratiyasının təməl anlayışlarından tərtib edilib:

*dövlət insanlar arasında bağlanmış müqavilədən törəyir və o, öz öhdəliklərini yerinə yetirmədikdə devrilə bilər;*

*dövlət öz vətəndaşlarının hüquqlarını və əmlakını müdafiə etmək üçün yaradılır;*

*cinayət törətməkdə ittiham edilən hər bir insan andlılar məhkəməsi hüququna malikdir;*

*dövlət müvafiq order olmadan öz vətəndaşının mənzilində axtarış aparılmasına yol verməməlidir;*

*vətəndaşların razılığı olmadan onların üzərinə heç bir vergi qoyula bilməz.*

Bəyannamədə verilmiş dövlət quruluşu konsepsiyası bir neçə məqsəd güdürdü. O, "müqavilə nəzəriyyəsini" dövlət quruluşu haqqında Amerika fəlsəfəsinin əsas aspekti qismində yalnız inqilabçı nəsil üçün deyil, həm də sonrakı nəsillər üçün təsdiq edirdi. III Qeorqla bağlı narazılıqlar çoxdan unudulsa da, dövlətin xalqın hüquqlarını müdafiə etməyə borclu olması və bunu edə bilmədikdə buraxılması haqqında ideya bu günə qədər amerikalılar üçün başlıca prinsip olaraq qalır.

Bəyannamə bir çox əvvəlki Amerika və Britaniya nəsillərinin təcrübəsini mənimsəməklə yanaşı bu ideyalar çərçivəsindən kənara çıxır və bir sıra müasir müəlliflərin qeyd etdiyi kimi, o, dövlətin məqsədləri haqqında görüşlər baxımından bənzəri olmayan sənəddir. Orta əsrlərin axırlarında Avropada millət–dövlətlərin meydana gəldiyi dövrdə belə hesab olunurdu ki, hökumətlər hüquq qaydasının təmin edilməsi və cəmiyyətdə sabitliyin müdafiəsi üçün lazımdır. Lakin İstiqlaliyyət Bəyannaməsi hüquq qaydasının vacibliyini inkar etməsə də, qeyd edir ki, *hökumətin əsas vəzifəsi şəxsiyyətin hüquqlarını müdafiə etməkdir.* Burada ilk dəfə olaraq əsas diqqət cəmiyyətə deyil, şəxsiyyətə yetirilir və hökumətin uğuru onun cəmiyyəti nə dərəcədə yaxşı tənzimləməsi ilə deyil, *şəxsiyyətin hökumətdən hansı dərəcədə azad olması ilə ölçülür.*

Beləliklə, Ceffersonun nəcibliklə təfsir etdiyi insan hüquqları təkcə Birləşmiş Ştatlarda deyil, həm də bütün dünyada gələcək nəsillər üçün bir növ yol göstərən ulduz olmuşdur. Bunu da nəzərdən qaçırmaq olmaz ki, Ceffersonun ideyalarının həyata keçirilməsi üçün

HİKMƏT HACIZADƏNİN KİTABXANASINDA Arxiv 2025

müəyyən vaxt tələb olunurdu, çünki XVIII əsr Amerika cəmiyyəti ölkənin bütün sakinlərinə heç də eyni cür yanaşmırdı. Yerli əhali – hindulara, əmlaksız insanlara, qadınlara və ələlxüsus qaradərili kölələrə bərabər gözlə baxılmırdı və onların heç bir hüququ yox idi. Lakin Bəyannamə elə bir məqsəd, ideal və standart qoydu ki, onun əsasında Amerika cəmiyyətinə hər zaman qiymət vermək mümkündür. Amerika demokratiyasının inkişaf yolu bir çox cəhətdən İstiqlaliyyət Bəyannaməsində verilmiş prinsiplərin təcəssümüdür. Bu prinsiplər isə ondan ibarətdir ki, *insanların bərabər doğulmaşı sübuta ehtiyacı olmayan bir həqiqətdir; onlar alınmaz hüquqlara malikdirlər; dövlət öz hakimiyyətini yalnız idarə etdiklərinin razılığı əsasında əldə edə bilər və dövlətin vəzifəsi bu hüquqları müdafiə etməkdir.* Bu prinsiplər bu gün də Amerikanın kişi və qadınlarını ilhama gətirməkdədir. Bunlar Amerika demokratiyasının uğurunun, eləcə də uğursuzluğunun meyarlarıdır.

**Əlavə məlumat üçün oxuyun:** Bernard Bailyn, The Ideological Origins of the American Revolution (1967); Gordon Wood, The Creation of the American Republic, 1776-1787 (1969); Gordon Wood The Radicalism of the American Revolution (1992). Garry Wills, Inventing America: Jefferson's Declaration of Independence (1978). Martin Diamond, "The Declaration and the Constitution: Liberty, Democracy, and the Founders," Public Interest 41 (1975): 39.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

## İSTİQLALİYYƏT BƏYANNAMƏSİ

Bəşər tarixində elə bir məqam yetişir ki, hər hansı xalq onu başqa bir xalqa bağlayan siyasi əlaqələri qırıb atmağa, təbiətin və Yaradanın ona da bəxş etdiyi qanunlara uyğun olaraq dünya dövlətləri arasında müstəqil, heç kəsdən asılı olmadan mövqe tutmağa çalışır və belə olanda həmin xalq bəşəriyyətin rəyinə ehtiram əlaməti kimi özünün müstəqilliyə canatma səbəblərini, heç şəksiz ki, izah etməlidir.

Biz bunu sübuta ehtiyacı olmayan bir həqiqət sayırıq ki, bütün insanlar bərabərhüquqlu yaradılıb və Yaradan öz bəndələrinə müəyyən toxunulmaz hüquqlar bəxş edibdir, onların sırasına yaşamaq, azadlıq, səadətə canatma hüququ da daxildir; belə hüquqların təmin edilməsi üçün insan-

lar ədalətli, idarə olunanların razılığına əsaslanan hökumət qurur; odur ki, hər hansı dövlət həmin hüquqları pozarsa, xalqın onu dəyişməyə, ləğv etməyə, əvəzindəsə həmin prinsiplərə dayanan, insanların əmin-amanlığına və güzəranına daha yüksək təminat verən yeni quruluş yaratmağa haqqı vardır. Əlbəttə, sağlam şüurun kəsdiyi odur ki, çoxdan bəri formalaşmış idarəçilik üsulları xırda və ötəri səbəblərə görə əvəz edilməsin, çünki keçmişin təcrübəsi göstərir ki, insanlar özlərinin alışdıqları həyat tərzini dəyişməkdənsə, imkan varsa, şərin hökmünə dözməyə daha meyillidirlər. Ancaq uzunmüddətli azğınlıq və zillət yeganə və ardıcıl məqsəd – xalqı sonu görünməyən despotizmə tabe etdirmək məqsədi daşıyırsa, onda bu cür iqtidarı devirmək və özünün gələcək əmin-amanlığını təmin edən etibarlı bir zəmin yaratmaq xalqın haqqı və borcudur. Həmin bu kolonistlər də həmçinin uzun müddətdir ki, müxtəlif sıxıntılara düçar olublar və ancaq zərurət onları keçmiş dövlət quruluşunu dəyişməyə məcbur edir.

Hazırda taxtda olan Böyük Britaniya kralının hökmranlıq tarixi əslində bizim ştatlarda mütləqiyyəti bərqərar etmək kimi birbaşa məqsəd güdən, ardı-arası kəsilməyən zülm və zillət tarixidir. Bunu sübuta yetirmək üçün insaf yiyəsi olan dünyanın nəzərinə aşağıdakı faktları çatdırırıq:

Kral camaatın güzəranı üçün gərəkli və xeyirli olan qanunlara razılıq vermirdi.

O, qubernatorlara qadağan etmişdi ki, nə qədər təxirəsalınmaz olsa belə, özü təsdiq etməyincə heç bir qanun qüvvəyə minməsin. Həmin qanunların tətbiqi bu yolla dayandırılanda onlara zərrəcə məhəl qoymurdu.

O, geniş, əhalisi çox bölgələrin sakinlərinə sərfəli olan qanunları həyata keçirməyə yalniz o vaxt icaza verirdi ki, sakinlər qanunvericilik qurumunda təmsil hüququndan əl çəkməli olsunlar, bu hüquq isə xalq üçün olduqca vacib, tiranlar üçün isə xətalıdır.

O, qanunvericiləri fiziki cəhətdən yormaq, beləliklə də onların iradəsini yalnız özünə tabe etdirmək məqsədilə toplantıları ucqar məskənlərdə, arxivlərdən uzaq, narahat yerlərdə çağırtdırırdı.

O, qanunverici məclisləri həmin səbəbdən dəfələrlə buraxmışdı, çünki onlar xalqa məxsus hüquqların kral tərəfindən pozulmasına qətiyyətlə müqavimət göstərirdilər.

Kral qanunvericiləri buraxandan sonra uzun müddət yeni seçkilər keçirmək istəmir, bu zaman ləğv oluna bilməyən qanunvericilik camaatın əlinə keçir, ölkə zəifləyir, xarici müdaxiləyə, daxili sarsıntılara uğrayırdı.

O, əhalinin bu ştatlarda məskunlaşmasına, əcnəbilərin burada oturaqlaşması barədə mövcud qaydaların tətbiqinə maneçilik törədir, mühacirə-

Hikmət Hacızadənin Arxiv Kitabxanasından

ti şirnikləndirən və torpaq paylarının alınmasına ixtiyar verən yeni qanunların təsdiqinə mane olurdu.

O, ədliyyənin icrasına yol vermir, məhkəmələrin yaranışı haqda qanuna qol qoymurdu.

O, hakimlərin qulluq müddətini, məvacibini istədiyi kimi müəyyən edir, onları təkcə öz iradəsindən asılı vəziyyətə salırdı.

O, saysız-hesabsız vəzifələr təsis edir, üstümüzə xalqı soyub-sıxışdıran məmurlar dəstəsi göndərirdi.

O, qanunverici məclislərimizin razılığı olmadan dinclik dövründə torpaqlarımızda daimi ordu saxlayırdı.

O, hərbi hakimiyyəti müstəqil etməyə və mülki qurumdan üstün tutmağa çalışırdı.

O, bizləri quruluşumuza və qanunlarımıza yabançı olan hakimiyyətə tabe etdirməkdən ötrü başqaları ilə sazişə girirdi; qeyri-qanuni hökumətin aktlarını çap etdirməklə aşağıdakı riyakar məqsədlər güdürdü:

– aramızda iri hərbi hissələr yerləşdirmək;

– adamlarımızı qətlə yetirən hərbçiləri qurama məhkəmələrlə müdafiə etmək;

– Yer kürəsinin başqa tərəfləri ilə ticarət əlaqələrimizi kəsmək;

– bizimlə razılaşdırmadan üstümüzə vergilər qoymaq;

– əksər hallarda bizi andlılar məhkəməsindən məhrum etmək;

– bizləri okeanın o tayına yollamaq və uydurma cinayətlər üstündə mühakimə etmək;

– qonşu əyalətdə[3] azad ingilis qanunları sistemini yoxa çıxarmaq, orada özbaşınalığa söykənən quruluş yaratmaq və onun sərhədlərini elə genəltmək ki, həmin quruluş bizə görk olsun, mütləqiyyətin bizim tərəflərdə yayılmasına vasitəçilik etsin; qanunları ləğv etməklə bizim idarəçilik sistemini kökündən dəyişdirmək;

– qanunverici məclisləri buraxmaqla bizim əvəzimizə hər cür qanun-qaydaların qəbul edilməsinə yiyə çıxmaq.

Kral bizə yiyə durmadı, bizə himayə göstərməkdən əl çəkib müharibəyə əl atdı.

O, dənizlərimizdə quldurluq edir, sahillərimizi qarət edir, şəhərlərimizi oda qalayır, həmvətənlərimizi öldürürdü. İndi də hətta qatı barbarlıq dövründə belə rast gəlinməyən, azad bir millətin hökmdarına yaraşmayan amansızlıqla, namərdcəsinə başladığı qırğın, qarət və qəddarlığı sona yetirmək üçün əcnəbi muzdlulardan ibarət böyük orduları üstümüzə göndərir.

HİKMƏT HACIZADƏNİN KİTABXANASINDAN Arxiv

O, açıq dənizdə əsir düşən soydaşlarımızı öz yurdlarına qarşı silah işlətməyə məcbur edirdi və beləcə, onlar ya dost-doğmalarının cəlladına çevrilir, ya da özləri onların əlindən əcəl tapırdılar.

O öz içərimizdə nifaq törədir, həm də yaşından, cinsindən asılı olmayaraq qabağına keçəni qırıb-çatan vəhşi hinduları bizim camaatımızla salışdırmağa cəhd göstərirdi.

Bu dərdləri çəkdikcə zaman-zaman acizanə şəkildə də olsa öz hüquqlarımızın bərpasını diləmişik. Bu barədə dönə-dönə etdiyimiz xahişlərə yeganə cavab isə növbəti haqsızlıqlar olub.

Müstəbid keyfiyyətlərinə malik hökmdar azad xalqın hökmdarı ola bilməz.

İngilis soydaşlarımız da yadımızdan çıxmayıb. Vaxtaşırı onların nəzərinə çatdırmışıq ki, onların qanunverici palataları bizi qanunsuz şəkildə özlərinə tabe etdirmək niyyətindədir. Mühacirətimizə və köçüb burada məskən salmağımıza səbəb olan şəraiti xatırlatmışıq. Onlara xas fitri alicənablıq və ədalət hissini xatırlatmaqla aramızdakı qan qohumluğuna da and vermişik ki, əvvəl-axır aramıza ayrılıq gətirəsi, eləcə də əlaqələrimizi üzən və bizə qarşı yönələn haqsızlığı yamanlayıb qınasınlar. Ancaq onlar nə haqqın, nə də qan qohumluğunun səsinə etina göstərdilər. Odur ki, ayrılmağımızın labüdlüyü ilə barışası olmalıyıq və bundan sonra onlara münasibətimiz özgə xalqlara necədirsə elə olasıdır, belə ki, müharibədə düşmən, dinc vaxtı dostuq.

Ona görə də biz yəni Amerika Birləşmiş Ştatlarının nümayəndələri Ali Konqresə toplaşıb və niyyətimizin səmimiliyinə Ulu Tanrını şahid çağırıb rəhmdil camaatımızın iradəsinə tabe oluruq və xalqın adından təntənəli şəkildə, uca səslə bəyan edirik – necə ki, bir ixtiyar sahibi, bizim birləşmiş müstəmləkələr indən belə azad və müstəqil Ştatlar olacaq, yəni onlar Britaniya taxt-tacına sadiq olmaqdan yaxasını qurtarır və beləliklə, Böyük Britaniya ilə hər cür siyasi əlaqələr büsbütün ləğv edilir. Bundan sonra Ştatların kiməsə müharibə elan etməyə, sülh bağlamağa, ittifaqa girməyə, ticarət aparmağa, bir sözlə, istədiyi səviyyədə, yəni azad dövlətlər tək təşəbbüsdə bulunub davranmağa tam ixtiyarı var.

Bu bəyannaməyə sübut olaraq və Allah-taalanın imdadına güvənərək, bu yolda heç nəyimizi əsirgəmədən, malımızı, canımızı qurban verməyə, öz şərəfimizi daim uca tutmağa and içirik.

**Mənbə:** F. N. Thorpe, ed., Federal and State Constitutions, vol. 1 (1909), 3.

[1] Fransa və Böyük Britaniya arasında doqquz illik müharibənin Amerika mərhələsi (1754–63), – *bütün rəqəmlə işarə olunmuş qeydlər kitabın Azərbaycan nəşrinin redaktoruna məxsusdur.*

[2] *William Blackstone* (1723–1780) – Britaniya hüquqşünası, məşhur "İngiltərə qanunlarına dair şərhlər" əsərinin müəllifi.

[3] Kanada nəzərdə tutulur.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN